# Cəbrayıl növbəti sakinlərini qarşılayıb






**İşğaldan azad edilmiş ərazilərin bərpası, Böyük qayıdışın həyata keçirilməsi dövlətimizin prioritet məsələlərindəndir. İşğalın fəsadlarının aradan qaldırılması, ərazilərin minalardan təmizlənməsi, yurd həsrəti çəkən keçmiş məcburi köçkünlərin torpaqlarına qovuşması istiqamətində qısa müddətdə əldə edilən uğurlar Prezident İlham Əliyevin qətiyyətli və uğurlu siyasətinin nəticəsidir.**

2026-cı ilin sonuna kimi, Böyük qayıdışın birinci mərhələsi bitənədək 34 min 500 ailənin işğaldan azad edilmiş ərazilərə köçürülməsi planlaşdırılır. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir, mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzura köç karvanları yola salınır.

Dünən daha bir qayıdış karvanı insanları doğma ocağına qovuşdurub. Cəbrayıl şəhərinə 42 ailə köçürülüb. Bakı, Sumqayıt şəhərlərindən və Abşeron rayonundan 32 ailə - 158 nəfər, Biləsuvar rayonundan 6 ailə - 30 nəfər, Saatlı rayonundan 1 ailə - 5 nəfər, Şəki şəhərindən 1 ailə - 4 nəfər, Şirvan şəhərindən 1 ailə - 4 nəfər və Tərtər rayonundan 1 ailə - 4 nəfər olmaqla, cəmi 205 nəfər Cəbrayıla yola salınıb. Bununla da şəhərin sakinlərinin sayı 1898 nəfərə çatıb.

30 ildən çoxdur bu günün xəyalıyla yaşayan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edib, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

İşğaldan azad edilmiş digər ərazilər kimi Cəbrayıl da artıq yeni dövrünü yaşayır. Vahid baş plan əsasında qurulan şəhərdə sakinlərin rahat və firavan yaşaması, işlə təmin olunması üçün hər bir şərait yaradılır. Cəbrayılda çoxsaylı bərpa və quruculuq işləri görülüb, bu işlər sürətlə davam edir.









Müharibədən qısa müddət sonra Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan irimiqyaslı bərpa-quruculuq işləri nəticəsində həyat yenidən öz axarına qayıdır, torpaqlarından zorla didərgin salınan vətəndaşlarımız fərəh və qürurla yeni həyata başlayırlar. İndiyədək 2819 ailə - 11190 nəfər öz yurduna geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 371 ailə (1396 nəfər) Şuşa şəhərində, 52 ailə (204 nəfər) Xocalı şəhərində, 442 ailə (1898 nəfər) Cəbrayıl şəhərində, Xocalı rayonunun Ballıca kəndində 90 ailə (467 nəfər) məskunlaşıb.

Hazırda Qarabağda və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 30 mindən çox insan yaşayır.

Dövlətimiz tərəfindən həyata keçirilən məqsədyönlü və genişmiqyaslı işlər Qarabağ və Şərqi Zəngəzurun dirçəlişinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi inkişafın təmin olunmasına xidmət edir. Bütün bunların fonunda əminliklə deyə bilərik ki, keçmiş məcburi köçkünlərin əzəli torpaqlarına qayıdışı ilə bağlı qarşıya qoyulan hədəflər uğurla gerçəkləşəcək.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 18 fevral (№ 36).- S.7.